**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№362/8** **28 dekabr 2023-cü il**

**Auditorlar Palatasının saytında auditin dəyərini hesablamaq üçün onlayn kalkulyatorun yaradılması və tətbiqi barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2023-cü il üzrə iş planının 2.6-cı “Auditorlar Palatasının saytında auditin dəyərini hesablamaq üçün onlayn kalkulyatorun yaradılması və tətbiqi” bəndinin icrasını təmin etmək məqsədilə müasir dövrün çağırışlarını, dünyada rəqəmsallaşma sahəsində baş verən hadisələri, 2022-ci il ərzində keçirilən sorğuların nəticələrini, 2022-2023-cü illər ərzində Palata tərəfindən haqsız rəqabətin aradan qaldırılması istiqamətində görülmüş işləri nəzərə alaraq Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsi tərəfindən hazırlanmış “Auditin dəyərini hesablamaq üçün onlayn kalkulyator sistemi”nin layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Auditin dəyərini hesablamaq üçün onlayn kalkulyator sistemi” bəyənilsin (əlavə olunur).

2. Auditin innovatv inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (Q.Əhmədov) tapşırılsın ki:

2.1. Palata Şurasının 2022-ci il 03 oktyabr tarixli 348/1 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri”ndə dəyişiklik edildiyi halda, auditin dəyərini hesablamaq üçün onlayn kalkulyator sistemində müvafiq düzəlişlərin həyata keçirilməsi təmin edilsin;

2.2. auditin dəyərini hesablamaq üçün onlayn kalkulyator sisteminə müntəzəm nəzarət təmin edilsin.

3. Bu qərarın mətnini Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**